# "France-24" Azərbaycan reallıqlarını ən mötəbər mənbədən öyrəndi



***Doğrusu, mətbuat vasitələrimiz Prezident İlham Əliyevin sentyabrın 28-də Fransanın "France-24" televiziya kanalına müsahibə verdiyi barədə xəbəri yayanda bir çox soydaşlarımız kimi mən də ötən illərdəki təcrübəyə əsaslanaraq gözləyirdim ki, bu jurnalist də vəziyyəti gərginləşdirməyə çalışacaq. Çünki ötən il öktyabrın 14-də həmin televiziyanın əməkdaşı ölkəmizə qarşı heç də xoş münasibət sərgiləməmişdi. İndi isə ... beynəlxalq aləmdəki həmkarlarımızın həqiqəti söyləməyə gücü çatır, deyəsən.***

Əslində alqışlanmalı məqamdır. Çünki bu müsahibə sübut etdi ki, Avropanın son onillərdə ölkəmizə qarşı qərəzli mövqe tutan mətbuat vasitələri də artıq Azərbaycan reallıqlarını qəbul etmək məcburiyyətində qalıblar. Bu isə bizim 44 günlük müharibədəki hərbi və siyasi qələbəmizin ardınca, diplomatiya və informasiya müstəvilərində də qazandığımız qələbənin göstəricisidir.

Heç kəsin yadından çıxmayıb. Ötən il oktyabrın 14-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşərək geniş müsahibə götürmüş "France-24" televiziya kanalının əməkdaşı ölkəmizə və xalqımıza qarşı qərəzli, hətta açıq ermənipərəst mövqeyini qətiyyən gizlətmək istəmirdi. O, gah Azərbaycan Ordusunun Xankəndidəki günahsız insanlara atəş açdığını deyir, gah da "Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi barədə uydurma fikirlər söyləyirdi. Təbii ki, Azərbaycan Prezidenti digər mətbuat vasitələrinin bəd niyyətli suallarını cavablandıranda göstərdiyi möhtəşəm siyasətçi arqumentləri ilə həmin jurnalisti də tamamilə "tərksilah etmişdi."

Bu dəfə isə "France-24"ün aparıcısı müsahibəyə Azərbaycanın şanlı qələbəsini etiraf etməklə başladı: "Ölkənizin 44 gün ərzində qalib gəldiyi Azərbaycan və Ermənistan arasında olan müharibənin başlanmasından düz bir il ötür". Fikrimizcə, dünya Azərbaycan həqiqətlərini, xüsusən, 44 günlük müharibədəki qələbəmizi daha geniş miqyasda tanıdıqca, bu qəbildən olan etirafları hələ çox eşidəcəyik.

Jurnalistin ilk sualında dilə gətirdiyi "Keçən həftə BMT-də müharibə bitəndən bəri ilk dəfə hər iki ölkənin – Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri görüşdü. Bu, hər iki tərəf arasında dialoqun yenidən başlaması və sülhə ümidin olacağı deməkdirmi?" – sualı da bir növ Avropa mətbuatının Cənubi Qafqazdakı mövcud vəziyyətlə barışmasının göstəricisi kimi qəbul edilə bilərdi. Elə dövlət başçımız da həmin arqumentə ümid etmək istədiyini dilə gətirdi: "Azərbaycan artıq neçə dəfə açıq şəkildə Ermənistanla dialoqa başlamağa hazır olduğunu bildirib. Söhbət təkcə dialoqun başlanılmasından getmir, eyni zamanda, Azərbaycan və Ermənistan arasında gələcək sülh razılaşmasının üzərində aparılacaq işdən də gedir... Ümid edirəm ki, bu, təkcə bir görüş yox, yeni bir prosesin başlanğıcı, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin və Cənubi Qafqaz regionunda geniş əməkdaşlığa yeni bir miqyas verəcək proses olacaq".

Üstəlik, Prezident vurğuladı ki, Azərbaycan heç vaxt, hətta müharibə zamanı, hətta işğal zamanı belə istənilən yüksək səviyyəli təmaslara etirazını bildirməyib. Əksinə, dövlət başçımız hesab edir ki, bu təmaslar hər iki tərəfdə yaranmış sualları cavablandıra bilər və regionun inkişafı üçün yeni başlanğıc nöqtəsi ola bilər. İlham Əliyev bir daha xatırladır ki, bizim mövqeyimiz çox aydındır, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır: "Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq".

> ***Müharibə bitib, münaqişə öz həllini tapıb. Biz regionu daha da proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz regiona çevirmək üçün yeni fəaliyyətə başlamalıyıq. Hər iki ölkənin xarici işlər nazirlərinin görüşü bu səylərin yaxşı göstəricisidir.***
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransanın "France-24" televiziya kanalına müsahibəsindən***
> ***Bakı, 28 sentyabr 2021-ci il.***

Bu zaman bir məqamı xüsusilə yada salmaq istərdik. Fransa televiziyası aparıcısının Azərbaycan Prezidentinə ünvanladığı suallardan biri sübut etdi ki, avropalı həmkarlarımız bizim dövlət başçımızın nəinki siyasi fəaliyyətini diqqətlə izləyirlər, hətta onun öz xalqına müraciətlərində də hansı məsələlərin olduğunu mikroskopla axtaran kimi "tədqiq edirlər".

Jurnalist Azərbaycan Prezidentinə sentyabrın 28-də ünvanladığı sualda dövlət başçımızın sentyabrın 27-də xalqımıza müraciətindən sitat gətirdi: "Müharibənin ildönümü ilə əlaqədar müraciətinizdə Siz dediniz ki, – mən Sizdən sitat gətirirəm: "Əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik".

Yaxşı ki, avropalı həmkarımız bu sualı da gündəliyə gətirdi. Çünki dövlət başçımızın bu suala verdiyi cavab əslində bu gün İrəvanda oturub Azərbaycana qarşı diş qıcardanlara verilən cavab idi. "Mənim bəyanatım öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür"- deyən Prezident əlavə etdi ki, regionda sülhün bərqərar olunması ilə bağlı bizim mövqeyimizə gəldikdə, mən bir neçə dəfə açıq bəyanatlar vermişəm: "Bunlar xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası üzərində işə başlamaqdan, Ermənistanla sülh sazişinin üzərində aparılacaq hərtərəfli danışıqlara hazırlaşmağa başlamaqdan ibarətdir. Bütün bunlar xoşməramlı jestlərdir. Yeri gəlmişkən, bunların heç birinə Ermənistan rəhbərliyi tərəfindən adekvat cavab verilməyib. Onlar ya bu təkliflərə məhəl qoymur, ya da ki, hazır olmadıqlarını deyirlər".

Azərbaycan vətəndaşlarını daha çox məmnun edən məqam isə cənab Prezidentin Ermənistanın bəzi dairələrində revanşizm tendensiyalarının davam etməsi barədə dedikləri idi. Prezident xatırlatdı ki, mənim bəyanatımın əsas məqsədi Ermənistan rəhbərliyini istənilən revanşizm əlamətlərinə, xalqımıza, dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhlükəyə cavab veriləcəyi haqqında xəbərdar etməkdən ibarət idi: "Onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi. Biz müharibəyə başlamaq istəmirik. Bu, bizə lazım deyil. Danışıqlar aparılan illər ərzində bu, bizə heç vaxt lazım olmayıb. Lakin indi hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün onlara xəbərdarlıq etmək vaxtıdır".

Biz yuxarıda qeyd etdik ki, avropalı mətbuat təmsilçiləri artıq Azərbaycan reallıqlarını anlayır və qəbul edirlər. Ancaq rusiyalı ekspert Aleksey Medvedevin dediyi kimi, "fransız həmişə fransızdır". Fransalı jurnalist son bir ildə baş verən bu qədər siyasi, diplomatik, hərbi və mənəvi-psixoloji proseslər silsiləsindən sonra yenə də Azərbaycan Prezidentindən soruşur ki, Siz Qarabağa muxtariyyət verməyə hazırsınızmı? Yenə də yada salıram, yaxşı ki, soruşur. Çünki dövlət başçımızın həmin təxribatçı suala verdiyi cavabı dünya siyasətçilərinin eşitməsi bir çox dairələr üçün səmərəli olacaq. Yəni onlar bundan sonra əbəs yerə vaxt itirməyəcəklər.

Azərbaycan Prezidenti növbəti dəfə xatırlatdı ki, bu status məsələsini gündəliyə gətirmək istəyənlər öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər: "Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər – yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır".

Bu qısa sətirlərdə artıq üçüncü dəfədir ki, yada salıram. Nə yaxşı ki, Fransa televiziyası bu müsahibəni hazırladı. Çünki dövlət başçımızın bütün cavabları təkcə Azərbaycan həqiqətlərinin deyil, həm də 44 günlük müharibədən sonra yaranmış Cənubi Qafqaz reallıqlarının növbəti dəfə Avropa tamaşaçılarına çatdırılmasını təmin etdi. Qarabağ Azərbaycandır və heç bir statusdan söhbət gedə bilməz!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***